**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# XX ƏSRİN SONU – XXI ƏSRİN ƏVVƏLLƏRİNDƏ AZƏRBAYCAN MƏDƏNİYYƏTİNDƏ İNSANIN İDENTİFİKASİYA MODELLƏRİ

İxtisas: 6219.01 – Kulturologiya və onun ümumi məsələləri

Elm sahəsi: Sənətşünaslıq

İddiaçı: **Nərgiz Şaban qızı Yaqubova**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2022**

Dissertasiya Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin "Sosial-mədəni fəaliyyət" kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: fəlsəfə elmləri doktoru, professor
**Niyazi Musa oğlu Mehdiyev**

Rəsmi opponentlər: kulturologiya elmləri doktoru, professor
**Çingiz Əli oğlu Abdullayev**

kulturologiya üzrə fəlsəfə doktoru
**Nailə Ədalət qızı Əliyeva**

sənətşünaslıq üzrə fəlsəfə doktoru
**Turanxanım Hidayət qızı Şirzadova**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının AMEA Memarlıq və İncəsənət İnstitutu nəzdində fəaliyyət göstərən FD 1.34 Dissertasiya şurası

Dissertasiya şurasının sədri: AMEA-nın müxbir üzvü, professor
**Ərtegin Əbdül Vahab oğlu Salamzadə**

____________________

Dissertasiya şurasının elmi katibi: sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent
**Xəzər Atif oğlu Zeynalov**

____________________

Elmi seminarın sədri: kulturologiya elmləri doktoru
**İlqar Həsrət oğlu Hüseynov**

____________________

# İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** İdentifikasiya, yəni özünüeyniləşdirmə insanın özünü müəyyən dəyərlər daxilində hiss etməsi, bu dəyərlərin hakim olduğu birlik ilə özünü eyniləşdirməsi deməkdir. Müəyyən bir qrupa, birliyə istinad edərək o, yaxşı və pis haqqında düşüncələrini, gələcək seçimlərini, digər insanlarla münasibətlərini tənzimləyir, həmin birliyin üzvü kimi fəaliyyət göstərir. Bu ona bütövlük, tamlıq hissi verərək müəyyənlik duyğusunu, gələcəyə inamını təmin edir. Yəni insanın ətraf aləm haqqında sabitləşmiş təsəvvürü, anlayışı olmalıdır ki, orada özünü taparaq, fəaliyyətini müəyyənləşdirə bilsin. Həmçinin, identiklik hissi insanların özünü aid etdiyi "biz" birliyini formalaşdırır ki, bu da qrupların, cəmiyyətlərin, dövlətlərin mövcud olması üçün zəruri amildir.

İdentiklik mövzusu XX əsrin sonu - XXI əsrin əvvəlləri üçün ona görə aktualdır ki, bu zaman kəsiyi mövcud təsəvvürlərin əsasında formalaşmış bütövlük hissinin dağıldığı, yeni istinad mənbələrinin formalaşmasına cəhdlərin müşahidə olunduğu dövrdür. SSRİ-nin parçalanması ilə artıq müstəqil olmuş respublikalar vahid "sovet insanı" modelindən imtina edərək öz milli kimliklərini qurmaq yoluna qədəm qoydular. Bu səbəbdən bu çağı keçid dönəmi də adlandırırlar, çünki yeni kimliklərin formalaşması dərhal baş verən bir proses deyil. Həmin dönəmdə köhnə sistem, ideologiyalar dağılır, yeniləri isə hələ formalaşmamış olur. Bu o deməkdir ki, həmin ideologiyada formalaşan identifikasiya modelləri də dağılır və yenilərinin yaranması prosesi baş verir. 70 il ərzində Sovet ideologiyası vasitəsilə, təbliğat, simvol və obrazlarla ortaq mədəni kimlik kimi "sovet insanı" kimliyi yaradılmağa çalışılmışdı. Tədqiqatçıların "homo sovieticus" adlandırdıqları bu kimliyin xüsusiyyətləri barədə müxtəlif fikirlər var. Amma bir şey dəqiqdir ki, bu kimliyin əməyə sevgi, kollektivçilik, ümumi maraqlar naminə fərdi maraqlardan imtina, təşəbbüskarlıq məhdudluğu, "yuxarılar"dan əmr gözləmək və ona tabe olmaq kimi xüsusiyyətləri onların dini, etnik, milli və s. fərqliliklərinin fövqündə duraraq onları eyniləşdirirdi. Buna baxmayaraq, federasiyaya daxil olan müxtəlif

respublikaların vətəndaşları öz milli mənliklərini qoruyub saxlaya bilmişdilər. Digər respublikaların vətəndaşları kimi azadlığa qovuşan Azərbaycan insanı "sovet insanı" kimliyindən də azad oldu və ehtimal etmək olardı ki, öz milli kimliyinə qayıtmaq sadə bir proses olacaq. Amma aradan keçən 70 il ərzində milli kimliyin Sovet ideologiyasından təsirləndiyi və qayıdış yolunda bizə hələ yad olan yeni dünyanın dəyərlərini də qəbul etmə zərurəti meydana çıxdı. Əvvəlki dəyərlərin dağılması, qeyri-müəyyənlik və keçid dövrünün sosial çətinlikləri insanlarda yalnızlıq və təhlükə hissi yaratdı. Bu şəraitdə insanlar onların dünyagörüşlərinin bütövlüyünü təmin edə biləcək etibarlı sosiomədəni qruplar axtarırdı. Amma bu zaman o, fərqli seçimlər arasında çıxılmaz vəziyyətdə qaldı və müxtəlif qütblərə doğru yönəldi. "*Kommunizm ideologiyasının monoton pərdəsi altında gizlənən şüuraltı arxetiplər fəallaşaraq cəmiyyəti polikültür mərhələyə istiqamətləndirdi..Tədricən əhali arasında azərbaycanlı kimliyi kontekstində aktuallaşan etnik, dini və məzhəb identiklikləri, vesternizasiya təmayülləri ümummilli kimliyin fövqünə çıxır*".[1] Cəmiyyətdə individualizm, fərqli dünyagörüşünə istinad edən qrup identiklikləri tədricən daha da artır. Bəhs etdiymiz zaman kəsiyində Azərbaycan insanlarında həm sovet keçmişinin, həm müasir bazar iqtisadiyyatı gerçəkliklərinin, həm də milli mədəniyyətin xüsusiyyətlərini müşahidə etmək mümkün idi. Bu mənada sosiomədəni birliklərin və müvafiq olaraq identifikasiya modellərinin araşdırılması dayanıqlı Azərbaycan cəmiyyətinin qurulmasında praktiki əhəmiyyət daşıyır. Bu xüsusiyyətlərin araşdırılması həm də gələcək inkişafın müəyyənləşdirilməsi üçün aktuallıq kəsb edir.

İdentifikasiya modellərinin yenilənə bilmə xüsusiyyətini bizə əminliklə deməyə o əsas verir ki, insan üçün önəmli olan dəyərlər sistemi, ideallar, prototiplər də tarixi inkişaf prosesi ərzində zamanla dəyişir. Həmçinin, artıq ötən əsrin sonlarından etibarən elmi ədəbiyyatda identikliyin sabit və dəyişməz olmadığını iddia edən "millət quruculuğu" və "xəyali birliklər" kimi nəzəriyyələr öz

[1]Məmmədov, R. Azərbaycan ailəsi: dünən və bu gün / R. Məmmədov. – Bakı: – 2018.– s.126-130.

təsdiqini tapmağa başlamışdı. Sübut olunmuşdu ki, identiklik dinamik, elastik, istiqamətləndirilə biləndir və tarixi-siyasi şəraitə uyğun olaraq formalaşır. Buna görə də, identiklik quruculuğu və milli kimliklərin manipulyasiyası baxımından Sovetlər Birliyi təcrübə məkanı kimi təsvir edilə bilər. "*Sovet sivilizasiyasının quruluşuna daxil olan bir çox qeyri-müəyyənlik və ziddiyyətlərdən heç biri milli kimlik məsələsindən daha qeyri-müəyyən və ziddiyyətli deyildi.*"[2] SSRİ-nin dağılması ona daxil olan ölkələrin necə qurulduğunu və inkişaf etmə xüsusiyyətlərini əsaslı şəkildə yenidən nəzərdən keçirməyi tələb edirdi. Müstəqil olmuş on beş respublika öz tarixlərini araşdıraraq, niyə başqa cür deyil, məhz hazırki formada təşəkkül tapdığını öyrənməyə başladılar. Ümumiyyətlə, Azərbaycan öz inkişaf tarixi ərzində müxtəlif zamanlarda, müxtəlif imperiyaların tərkibinə qatılaraq fərqli təsirlərə məruz qaldığından Azərbaycan identikliyi mövzusu həmişə aktual olmuşdur.

Mövzunu aktual edən digər səbəb ondan ibarətdir ki, inteqrasiya olunduğumuz yeni dünyada artıq özünütanıma böhranı yaşanırdı. Çünki qloballaşma prosesi, modern və postmodern dövrün xüsusiyyətləri insana azadlıq və müxtəlif seçimlər təklif edir. Sovet dövründə informasiya və digər ölkələrlə qarşılıqlı münasibətlərin məhdudluğu insanların öyrəşdiyi "sovet insanı" modelini hər hansı təhlükələrdən qoruyurdu. Mövcud vəziyyətdə isə Azərbaycan insanlarının artıq parçalanmış identiklik ilə çaşqın halda bu yeni dünyaya daxil olması bəzi narahatlıqlar yaradır.

İnsanın identifikasiyası probleminin humanitar elmlərin müxtəlif sahələrində nəzəri və praktiki araşdırılması aparılmışdır. Kulturoloji, sosial, fəlsəfi, psixoloji mənbələrdə insan və cəmiyyət münasibətlərinə aid bir çox araşdırmalara rast gəlmək olar.

İnsan, mədəniyyət və cəmiyyət münasibətləri, insanın özünü-müəyyənləşdirməsi, identiklik və müxtəliflik mövzularına aid araşdırmalara Z.Freydin, E.Eriksonun, Q.Zimmelin, J.J.Russonun, A.Maslounun, V.Franklın, G.Midin, T.Stefanenkonun əsərlərində

---

[2]Soviet and Post-Soviet Identities / Edited by Mark Bassin and Catriona Kell. – Cambridge: Cambridge University Press, – 2016. – p.3.

rast gəlmək olar.[3] Azərbaycan ədəbiyyatında insan və cəmiyyət, azərbaycanlı insanların özünüdərk problemləri əsasən, N.Mehdi, H.Quliyev, N.Əfəndiyeva, N.Abbasov, M.Rzayev, R.Bədəlovun tədqiqatlarında öz əksini tapmışdır.[4] Həmçinin, A.Teşfelin, C.Törnerin, U. Lippmanın, Q.Ollportun, O.Klaynberqin, S.Qartnerin, C.Dovidionun, D.Hamiltonun da təcrübələri olduqca əhəmiyyətlidir.[5] Müasir dövrün xüsusiyyətlərinin insanın özünümüəyyənləşdirməsinə təsirləri, identifikasiya böhranı isə Z.Bauman, E.Fromm, U.Bek, T.Hobbs, A. Giddens və digərlərinin araşdırmalarında əsas

---

[3]Фрейд, З. Массовая психология и анализ человеческого Я. – Москва: Внешторгиздат, – 1990. – 448 с.; Эриксон , Э. Идентичность: юность и кризис. – Москва: Издательская группа "Прогресс", – 1996. – 344 с.; Зиммел, Г. Избранное.Созерцание жизни : [в 2 томах]. – Москва: Юрист, – т 2. – 1996. – 607 с.; Руссо, Ж.Ж. Об общественном договоре. Трактаты. – Москва: Канон-пресс, – 1998. – 413 с.; . Маслоу, А. Мотивация и личность. – Санкт-Петербург: Евразия, – 1999. – 478 с.; Франкл, В. Человек в поисках смысла. – Москва: Прогресс, – 1990. – 372 с.; Mead, G. H. Mind, Self and Society. – Chicago: University of Chicago Press, – 2015. – 536 p.; Стефаненко, Т.Г. Социальная психология этнической идентичности: / автореферат диссертации на соискание ученой степени доктора психологических наук / – Москва, 1999. – 49 с.

[4]Mehdi, N. Fəlsəfə tarixində fəlsəfə / N.Mehdi, D.Mehdi. – Bakı: Qanun, – 2005. – 276 s.; Mehdi, N. 110 Nəsnə / N.Mehdi. – Bakı: Qanun, – 2014. – 448 s.Гулиев, Г. Архетипичные азери: лики менталитета. – Баку: Ени несил, – 2002. – 354с.; Əfəndiyeva N. Azərbaycanlı özünüdərki və milli özünüdentifikasiyasının kulturoloji-fəlsəfi problemləri qloballaşma kontekstində: / kulturologiya üzrə fəlsəfə doktoru dis. / – Bakı, – 2007. – 261 s.; Abbasov, N. Mədəni insan / N.Abbasov. – Bakı: ADMİU, – 2020. – 207 s.; Rzayev, M.H. Keçid dövrü şəxsiyyətinin sosial-fəlsəfi təhlili: / fəlsəfə üzrə elmlər doktoru dis. / – Bakı, 2005. – 308 s.; Бадалов, Р. Легко ли быть азербайджанцем. Диалоги с самим собой / Р.Бадалов. – Баку: Пергамент, – 2022. – 402 с.

[5]Тернер, Дж. Социальное влияние. – Санкт-Петербург: Питер, – 2003 – 239 с.; Lippmann, W. Public opinion. – New-York: Harcourt, Brace and Company, – 1922. – 427 p.; Allport, G.W. The nature of prejudice. – New-York: Addison Wesley, – 1954. – 537 p.; Gaertner, S.L. Reducing integroup bias: the common ingroup identity model / S.L. Gaertner, J.F. Dovidio – Philadelphia: Psychology Press , – 2000. – 226 p.; Hamilton, D.L. Stereotypes / Handbook of social cognition. Ed. Wyer R.S., Srull Th.K. / D.L.Hamilton, J.W.Sherman, – Hillsdale, NJ: Erlbaum, – 1994. – pp. 1-68.

mövzulardandır. Xüsusilə Z.Baumanın "Fərdiləşmiş cəmiyyət", "Axıcı müasirlik" və s. əsərləri diqqətəlayiqdir.

Mövzumuz həm də dəyərlər transformasiyası ilə xarakterizə olunan keçid dövrünün xüsusiyyətlərini əhatə etdiyi üçün bu zaman kəsiyini öz işlərinin hədəfi edən araşdırmaçıları da qeyd etməliyik. Xarici alimlərdən C.Elsteri, T.Hunteri, K.Mannı, C.Offeni, K.Verderini, K.Qodsini, V.A.Yadovu, Y.A.Levadanı göstərmək olar.[6] K.Manın redaktorluğu ilə hazırlanmış "Postsosializm: ideallar və ideologiyalar" toplusu bizə postsovet ölkələrinin təcrübələrini öyrənməyə imkan verir. Azərbaycanlı müəlliflərdən R.Mehdiyevi, S.Məmmədovanı, V.Cəfərovanı qeyd edə bilərik. Azərbaycan Elmlər Akademiyasının Sosiologiya və Hüquq İnstitunun tərtib etdiyi "Azərbaycan cəmiyyəti transformasiya şəraitində" toplusunda Azərbaycanda baş verən dəyişikliklərin müxtəlif aspektləri işıqlandırılmışdır.

Postsovet məkanında artan millilik, özünəqayıdış cərəyanlarını araşdıran alimlərdən T.Kuzionu, R.Brubakeri, R.İsaaksı göstərmək olar. İdeoloji cəhətdən azərbaycanlıların özünütanıma problemləri ilə bağlı elmi ədəbiyyat da xeyli zəngindir. Müasir dövrdə daha çox gündəmə gələn milli kimlik məsələsini S.Cornell, C.Tokluoğlu, T.Svetoxovski, N.Tohidi, R.Motika, H.Yılmaz, C.Mahmudlu, F.Ələkbərov, Ə.Tağıyev və başqaları araşdırmışdır.[7]

---

[6]Elster, J. When Communism Dissolves // London Review of Books , – 1990. Jan; 24. – pp. 3-6.; Postsocialism Ideals, ideologies and practices in Eurasia / Edited by C.M.Hann. – London: Routledge, – 2004. – 345 p.; Verdery, K. What Was Socialism and What Comes Next?. – Princeton: Princeton University Press, – 1996. – 298 p.; Ghodsee, K. Lost in Transition: Ethnographies of Everyday Life after Communism. – Durham, NC: Duke University Press, – 2011. – 232 p.; Левада, Ю. Советский простой человек: Опыт социального портрета на рубеже 90-х / Ю Левада. – Москва: Мировой океан, – 1993. – 300 с.

[7]Cornell, S.E. Azerbaijan Since Independence. – New York: M.E. Sharpe. –2011. – 485 p.; Tokluoglu, C. Definitions of National Identity, Nationalism and Ethnicity in Post-Soviet Azerbaijan in the 1990s // Ethnic and Racial Studies, – 2005, vol. 28(4), – pp. 722-758.; Swietochowski, T. Russia and Azerbaijan: A Borderland in Transition. – New York: Columbia University Press. – 1995. – 290 p.; Tohidi, N. Gender and National Identity in Post-Soviet Azerbaijan: Regional Perspective // Khazar Journal of Humanities and Social Sciences, – 2000, vol. 3 (2).; Motika, R. Islam in Post-Soviet Azerbaijan // Archives de sciences sociales des religions, – 2001, № 115, – pp.111-124.

Bizim mövzumuza ən yaxın olan araşdırmaları qeyd etməli olsaq, bunlar S.Məmmədovanın "Keçid dövründə şəxsiyyət problemi", N.Əfəndiyevanın "Azərbaycanlı özünüdərki və milli özünüdentifikasiyasının kulturoloji-fəlsəfi problemləri qloballaşma kontekstində", M.Rzayevin "Keçid dövrü şəxsiyyətinin sosial-fəlsəfi təhlili" tədqiqatlarıdır.

Bununla bərabər qeyd etməliyik ki, göstərilən ədəbiyyatlar bəhs etdiyimiz mövzunun ancaq müəyyən bölmələri üzrə araşdırmalardır. Cəmiyyətin stabilliyinin və dayanıqlılığının asılı olduğu insanın identifikasiya modelləri, onun xüsusiyyətləri, keçid dövründə inkişaf xüsusiyyətləri dissertasiya səviyyəsində araşdırılmayıb.

**Tədqiqatın məqsəd və vəzifələri.** Müəllif bu işdə öz qarşısına XX əsrin sonu - XXI əsrin əvvəllərində Azərbaycan mədəniyyətində insanların identifikasiya modellərini aşkara çıxarmağı qoymuşdur. Məhz bu dövrün seçilməsinə səbəb isə həmin zaman kəsiyinin dəyişikliklərlə və ziddiyyətlərlə fərqlənməsidir. Bu şərait isə özlüyündə identifikasiya modellərinin dəyişilməsinə əsas verir. Qoyulan məqsəd dissertasiya işinin vəzifələrini müəyyən etmişdir:

– İdentiklik hissinin, insanın nəyəsə bağlanmaq tələbatının zəruriliyinin, həmçinin müsbət və mənfi cəhətlərinin, fərdi və sosial identifikasiyanın təhlilini vermək;

– İdentifikasiya böhranının müasir dövrün xüsusiyyətləri ilə əlaqəsini göstərmək, səbəblərini və nəticələrini müəyyən etmək, maddi dəyərlərə meyillilik ilə əlaqəsini nəzərdən keçirmək;

– XX əsrin sonu – XXI əsrin əvvəllərində Azərbaycanda müşahidə olunan hərtərəfli dəyişikliklərin insanların özünüidentifikasiya modellərinin transformasiyasının şərtləndirdiyini aşkara çıxarmaq;

– Keçid dövrünün sosial çətinliklərinin insanların dəyər orientasiyasına təsirini araşdırmaq;

– Tarixi identifikasiya modellərinin formalaşma xüsusiyyətlərini və müasir dövrdəki cəhətlərini açıqlamaq;

– Dünyada müşahidə olunan identifikasiya böhranının, qloballaşmanın əlamətlərinin Azərbaycanda insanların özünümüəyyənləşdirməsinə təsirini öyrənmək.

**Tədqiqatın obyekti** XX əsrin sonu-XXI əsrin əvvəllərində Azərbaycanda  insanın identifikasiya modelləridir.

**Tədqiqatın predmeti** isə Azərbaycan cəmiyyətində radikal dəyişikliklər şəraitində insanın identifikasiya modellərinin üzə çıxma xüsusiyyətləridir.

**Tədqiqat metodları.** Tədqiqatın gedişində fenomenoloji, interaksionist və aksioloji yanaşma insan və cəmiyyət münasibətlərini anlamağa yardımçı oldu. Struktur funksionalist yanaşma identifikasiya modellərinin formalaşmasına təsirləri və onların struktur komponentlərini öyrənməyə imkan verir. Həmçinin psixoanalitik analizə də ehtiyac yaranmışdır. Tarixi-müqayisəli metoddan isə identifikasiya modellərinin formalaşmasının tarixi əsaslarının öyrənilməsində istifadə olunmuşdur. Tədqiqat zamanı sistemlilik, tarixilik, obyektivlik prinsiplərinə əsaslanmışdır.

**Müdafiəyə çıxarılan əsas müddəalar.** Müdafiəyə aşağıdakı müddəalar çıxarılır.

– İdentifikasiya, yəni özünü hər hansı birlik ilə eyniləşdirmə, bağlanma insanın əsas tələbatlarından biridir. Eyni zamanda onun digərlərindən ayrılma və fərdiyyətçilik tələbatları da vardır. Bu səbəbdən identiklik həm insanın birliyə olan ehtiyacını təmin edir, həm də onun individuallığını məhdudlaşdırmış olur.

– İdentifikasiya modelləri tarixin müxtəlif dönəmlərində hakim olan dəyərlərə əsasən, siyasi-mədəni mühitə uyğun olaraq formalaşır. Şərait dəyişikliyə uğradığı kimi identifikasiya modelləri, ideal insan obrazları, prototiplər də sabit deyil, dəyişkən və elastikdir.

– Müasir dövrdə qloballaşma, modernizm, postmodernizm birliklərin sərhədlərini dağıdır, identifikasiya böhranına səbəb olur. İdentiklik hissi isə insanın daha çox mənəvi tərəfini qidalandırdığından ondan məhrumiyyət maddi dəyərlərə meyli artırır. Və ya əsas hədəfi daha çox uğurlu olmaq, daha çox qazanmaq olan obraz yaranır.

– Müstəqilliyin bərpası nəticəsində dünyaya inteqrasiya edən Azərbaycana bazar iqtisadiyyatı və istehlak mədəniyyətinin obrazları nüfuz etməyə başladı. Keçid dönəminin sosial çətinlikləri və yeni bazar qaydalarının formalaşmadığı qanun boşluğu şəraitində bu obrazlar mənəvi və etik normalara əsaslanmayaraq təşəkkül tapır.

– Milli tarixə, dilə, simvollara qayıdış müşahidə olunduğundan milli-mədəni identikliyin tərkib hissələri olan türkçülük və islamçılıq istiqamətinə ifrat meyil müşahidə olunur. Bunu uzun illər ərzində qoyulmuş qadağalardan sonra azad ifadəyə qovuşmanın nəticəsi kimi də görmək olar. Eyni zamanda sovet insanı modeli hələ də tam itməyib və rus mədəniyyətinə, dilinə meyil hələ də qalmaqdadır.

**Tədqiqatın elmi yeniliyi.** Tədqiqatın ayrı-ayrı bölmələrinə aid müxtəlif araşdırmalar olsa da, Azərbaycanda məhz keçid dövründə identifikasiya modellərinin üzə çıxma xüsusiyyətləri araşdırılmayıb. Dissertasiyada əldə olunan elmi yenilikləri aşağıdakı kimi qeyd etmək olar:

– İnsanın hər hansı dəyərlərə, normalara bağlanaraq, təsdiq edilmiş nümunəylə özünü eyniləşdirməsi hərtərəfli araşdırılmış, müsbət tərəfləri olduğu kimi mənfi tərəflərinin də olduğu müəyyən edilmişdir. Bunun üçün "identifikasiya modelləri" terminindən istifadə edilmişdir.

– Müasir dövrün xüsusiyyətləri insanlara daha çox azadlıq verməsi ilə bərabər əvvəlki birliklərin, ənənələrin və bağlılıqların dağılmasına səbəb olmuşdur. Nəticədə yaranan identifikasiya böhranının insanların daha çox maddi dəyərlərə meyillənməsinə səbəb olduğu göstərilmişdir.

– Keçid dövrü Azərbaycanının dəyişkən şəraitində insanın özünüidentifikasiyasının xüsusiyyətləri araşdırılmış, identifikasiya böhranı ilə bərabər sosial çətinliklərin insanların maddiyyata meyilliyinin, həmçinin problemlər qarşısında ailə bağlarının dəyərinin artdığı müəyyən edilmişdir.

– Müstəqilliyi qazanan, amma eyni zamanda, sabit dayaq nöqtələrini itirən insanların bu dayaq nöqtələrini bərpa etmək üçün öz tarixi identikliklərinə müraciətin intensivləşməsi müəyyən

edilmişdir. Dini, etnik identikliklər təhlil edilmiş, rusdilli əhali bir qrup kimi fərqləndirilmişdir.

– XX əsrin sonu- XXI əsrin əvvəllərində - Modernizm, Postmodernizm və qloballaşma proseslərinin dünyada identifikasiya böhranını və qeyri-sabitliyi daha da dərinləşdirdiyi bir zamanda Azərbaycanın bu dünyaya inteqrasiyasının insanların özünümüəyyənləşdirməsinə təsiri öyrənilmişdir. Sovet nostalgiyası ilə yaşayan yaşlı nəsil milli mədəniyyətə meyilli olduğu halda, gənc nəslin daha çox qlobal mədəniyyəti mənimsədiyi aşkar edilmişdir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Tədqiqat insanın özünütanıması, kimlik probleminin araşdırılmasında əhəmiyyətə malikdir və müasir Azərbaycan insanının özünütanıma və özünüdərk problemlərinə həsr olunmuş müxtəlif tədqiqatlar üçün nəzəri və təcrübi baza ola bilər. Həmçinin alınmış nəticələrdən müxtəlif qruplar arasında harmonik münasibətlərin qurulmasında istifadə oluna bilər. Pedaqoji sahədə "Mədəniyyət tarixi və nəzəriyyəsi" kursunu tədris edən mütəxəssislər üçün elmi mənbə rolunu oynaya bilər. Mədəniyyət siyasəti ilə məşğul olan mütəxəssislər tərəfindən də istifadə oluna bilər.

**Aprobasiyası və tətbiqi.** Dissertasiyanın əsas aspektləri müəllifin Azərbaycanda və xaricdə nəşr olunmuş elmi məqalələrində geniş şərh edilmişdir. Tədqiqatın əsas müddəaları müəllifin müxtəlif elmi-praktiki konfranslardakı məruzələrində öz əksini tapmış və müzakirə olunmuşdur.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya işi Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin "Sosial-mədəni fəaliyyət" kafedrasında yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Dissertasiyagiriş (8 səhifə) , iki fəsil (49 və 74 səhifə), beş yarımfəsil (1.1- 26, 1.2- 23, 2.1- 32, 2.2- 30, 2.3- 12 səhifə), nəticə (3 səhifə) və ədəbiyyat siyahısından (18 səhifə) ibarətdir. Tədqiqat işinin məzmunu ədəbiyyat siyahısı daxil olmaqla, kompüter yığımının 155 səhifəsində (298.625 işarə) öz əksini tapmışdır.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın **"Giriş"** hissəsində mövzunun aktuallığı əsaslandırılmış, işlənmə dərəcəsindən bəhs edilmiş, tədqiqatın məqsəd və vəzifələri, metodları, obyekti və predmeti, müdafiəyə çıxarılan əsas müddəaları müəyyən edilmiş, işin elmi yeniliyi, nəzəri və praktiki əhəmiyyəti açıqlanmışdır.

Birinci fəsil **"İdentifikasiya kateqoriyası haqqında"** adlanır və iki yarımfəsildən ibarətdir. **"İdentifikasiya və özünüidentifikasiya orientasiya zərurəti kimi"** adlanan birinci yarımfəsildə identifikasiya, identiklik termini haqqında ətraflı məlumat verilir. Qeyd olunur ki, identifikasiya insanın özünü hər hansı bir sosial rol, dil, mədəniyyət, etnik birliklə və s. eyniləşdirmə prosesidir. Birgəyaşayış və qarşılıqlı anlaşma üçün məhz sosiomədəni identifikasiya çox önəmli rola malikdir. Çünki insanın fəaliyyətini tənzimləməsi, cəmiyyətdə münasibətlərin qurulması müəyyən sosiomədəni normalar vasitəsilə mümkün olur.

Həmçinin fərdin özlüyündə və qrupa, birliyə nəzərən fəaliyyəti arasında fərq nəzərə çarpır. Buna görə də şəxsi və sosial identiklik mövzuları gündəmə gəlir. Şəxsi identiklikdə insanın özünəməxsusluğu, bənzərsizliyi, unikal xüsusiyyətləri önə çıxırsa, sosial identiklikdə fərdin mənsub olduğu birliyin normativ gözləntilərini qarşılamaq istəyi özünü göstərir. Şəxsin təfəkkürü və dəyərləri digərləri ilə ünsiyyət zamanı formalaşır. Simvolik interaksionizmin nümayəndəsi olan Ç.Kuli "güzgüdə mən" nəzəriyyəsində göstərir ki, fərdin özünüdərketməsi və dəyər istiqamətləri ətrafdakı insanların, əsasən də eyni sosial qrupdan olan insanların reaksiyalarını əks etdirir. C.Midə görə də insan öz "mən"ini yalnız qrup daxilində fəaliyyət zamanı, "ümumiləşmiş digəri"nin dəyər və normaları vasitəsilə tapır. Bir çox hallarda fərdlər sosial maraqlar çərçivəsindən, yəni təsdiqlənmiş nümunəvi şəxsiyyət tipinə uyğunluq müstəvisindən qiymətləndirilir, onun ictimai nizama zidd olan və ya sadəcə olaraq uyğun gəlməyən təzahürləri qınanılır, qəbul edilmir. Bu da təbii ki, müəyyən fərdlərdə yadlaşmaya, təklənməyə səbəb olur. Bu səbəbdən şəxsi və sosial identiklik arasında ziddiyyət insanları sual qarşısında qoyur: hamı kimi olmaq, yoxsa başqalarından fərqlənmək? Z.Freyd bunu xoşbəxtlik və

təhlükəsizlik arasında qarşıdurma kimi ifadə edirdi. Müəyyən birliklərlə bağlanmaq insanları təhlükəsizliklə təmin edir. Amma təhlükəsizlik naminə fərd öz unikallığından, istəklərindən, arzularından imtina etməli olur.

Özünüidentifikasiyanın digər bir mənfi cəhəti bundan ibarətdir ki, qoyulan qaydalara və normalara bağlılıq o dərəcə radikallaşa bilər ki, yalnız özünün doğrularına inandığı üçün digərləri düşmən kimi qəbul edilə bilər. Hər bir mədəniyyət özünü digər mədəniyyətlə qarşılıqlı münasibətdə, digərləri ilə müqayisə edərək müəyyənləşdirir. Hadisələrin və obyektlərin sistemləşdirilməsi və qiymətləndirilməsi üçün hər bir kəs öz mədəniyyəti və qrupu üçün xarakterik olan ölçü vahidlərindən istifadə edir. Bu zaman öz qrupuna aid olan dünya ilə digər qrupa aid olan dünya arasında kəskin fərqlər görə bilər. Məhz bu yolla özünü rahat, təhlükəsizlikdə hiss etdiyi "biz" və üzvlərini anlamadığı və bu səbəbdən inamsızlıq hiss etdiyi, ehtiyatlandığı "onlar" yaranır. Sosiomədəni identiklik birləşdirici xüsusiyyətə malik olduğu kimi, həm də digər birliklərdən fərqliliyin dərk olunmasına səbəb ola, biz-onlar, doğma-yad münasibətlərində sərhəd rolunu oynaya bilir.

Qruplar arasında fərqləndirici əlamətlərə əsasən kateqoriyalaşmanın əsas elementlərindən olan stereotiplər formalaşmış olur. Əvvəl stereotiplərin roluna inam az olsa da, 1950-ci illərdən başlayaraq O.Klaynberqin "həqiqət nüvəsi" hipotezi yayıldı. Bu hipotezə əsasən stereotipdəki doğru biliklərin həcmi yalanın həcmini üstələyir. Stereotiplər ətraf aləmin dərki prosesini asanlaşdırsa da, qruplararası qərəzin formalaşmasına yol açır. Çünki qruplararası münasibətlərdə öz qrupuna ancaq müsbət, digər qruplara isə mənfi xüsusiyyətlərin aid edilməsi və onlara inamsızlıq çox görülən xüsusiyyətdir. Qərəzin formaları isə stereotiplərdən başlayaraq ayrı-seçkiliyə (diskriminasiya), ədalətsizliyə, bərabərsizliyə, etnik təmizliyə və soyqırıma qədər müxtəlifdir. Bu səbəbdən hər bir birliyin digərinin özünəməxsusluğunu, bərabərhüquqluluğunu, qarşılıqlı təsir sərhədlərini dərk etdiyi tolerant mühitin yaradılması şərtdir.

**"İdentifikasiya böhranı: səbəblər və nəticələr"** adlanan ikinci yarımfəsildə identifikasiya böhranının yaranma səbəbləri,

xüsusiyyətləri, nəticələrindən bəhs olunur. XX əsrin sonu - XXI əsrin əvvəlləri həyat fəaliyyətinin bütün sahələrinə sirayət edən texnoloji, sosial, iqtisadi, siyasi transformasiyalar ilə xarakterizə olunur. Dəyişikliklərin sürətlənməsi və sosial yenilənmə nəticəsində dünyada qeyri-stabil vəziyyət yaranır, dayaq nöqtələri, orientasiya istiqamətləri itirilir. Ənənəvi cəmiyyətin sabit sərhədləri də müasir proseslər, qloballaşma nəticəsində silinir və insan öz aidiyyatını müəyyən etmək üçün daha çox seçim əldə edir. Özünüidentifikasiyanın insana əvvəlcədən verildiyi və demək olar ki bütün ömrü boyu saxlanıldığı ənənəvi cəmiyyətdən fərqli olaraq, müasir dövrdə o özü çoxsaylı variantlar arasından öz obrazını seçməlidir. E.Giddens "Müasirlik və özünüidentifikasiya" kitabında yazır ki, müasirliyin şərtləri ilə insanlar müstəqil olaraq özlərini axtarışa cəlb olunublar.[8] Fərdlərin bir çox davranış variantları arasından seçim etmək imkanı var. Bəzən bu variantlar arasından seçim etmək elə də asan olmur, bu isə identifikasiya böhranı ilə nəticələnir.

Tarixən birliklər, kollektivlər məhz insan həmrəyliyi, yardımsevərliyi nəticəsində yaranıb. Amma zaman keçdikcə bu həmrəylik, birliyə bağlılıq, yəni identiklik hissi zəifləyir. Müasir dövr dünyanı hərəkətə gətirərək, formalardan imtina edərək, hər şeyin dəyişdirilməsi üçün imkanlar yaratdı. İnsanlar da özlərini yaratmaqda və dəyişdirməkdə azaddırlar. Eyni zamanda, müəyyən qaydaların, ümumi qəbul olunmuş ideallarin olmaması nəticəsində aydın şəkildə tərtib olunmuş, etibarlı istiqamətlərdən, bununla da həyatının dəqiq müəyyənləşdirilmiş məqsədindən də məhrum olurlar. V.Frankl "İnsan məna axtarışında" kitabında insanın özünü mənasızlıq və boşluq içində hiss etməsini "ekzistensional vakum" adlandırırdı. O, insanın məna axtarışları boşa çıxdığı zaman pul qazanmağa, hakimiyyətə və sürətə can atdığını qeyd edir. İnsanların pula, şöhrətə, hakimiyyətə meyilliliyi onların özlərini digərlərindən üstün elan etmək cəhdlərindən irəli gəlir. Deməli, belə çıxır ki, insanlar çərçivələrdən azadlığa doğru qaçarkən başqa bir çərçivəyə, daha çox

---

[8]Giddens, A. Modernity and Self-Identity: Self and Society in the Late Modern Age. – Stanford, CA: Stanford University Press, – 1991. – pp 12-14.

pul qazanmaq, digərlərinə nisbətən daha çox mülkiyyət əldə edərək, qalibiyyətlərini elan etmək çərçivəsinə düşdülər. Müasir elmi inkişaf və bazar iqtisadiyyatının şərtləri insanın bu mənada özünütəsdiqi üçün şərait yaratmış olur.

Müasir dövrdə individualizm (fərdiyyətçilik) özünü hərtərəfli təsdiq etmiş olur. İndividualizm (latınca individuum - fərd) anlayışı, fərdi mənafelərin kollektiv və ya institusional maraqlardan üstünlüyünün tanınmasını ifadə edir. Fərdilik həyat mövqeyi və dünyagörüşü kimi fərdlərin ailə, qəbilə və ya sosial qrupdan təcrid olunması nəticəsində yaranır. Bu dünyagörüşü insanın özünü sevməsi, dəyərləndirməsi, hər an özünün unikallığını, hamıya bənzəmədiyini sübut etməsini bildirir. Fərdiyyətçiliklə bazar iqtisadiyyatının xüsusiyyətləri E. Fromun “bazar xarakterli insan”ını yaradır. İnsanın uğuru özünü necə təqdim etməyindən, bazar üçün lazımlı xüsusiyyətlərə malik olmasından asılıdır. Belə vəziyyətdə isə insan özünü əmtəə kimi hiss edir, onu həyatı və xoşbəxtliyi yox, bəyənilmək üçün nə qədər yaxşı olması narahat edir. Bazar xarakterli şəxslərin öz “mən”ləri yoxdur, çünki onların “mən”i “mən sizə lazım olan kimiyəm” prinsipinə uyğun olaraq daima dəyişir. Nəticədə o digərlərindən fərqli, yaxşı, bacarıqlı olduğunu sübut etməyə çalışarkən, hər kəs üçün qoyulan tələblərlə özünü eyniləşdirdiyinin və hamılaşdığının, kütləviləşdiyinin fərqində belə olmur.

İnsanlar sürətli dəyişikliklərə uyğunlaşaraq özlərini daim dəyişdirməlidirlər. Onlar artıq əvvəlcədən təyin edilmiş, irsi və ya doğuşdan verilmiş sosial rollardan azad olurlar. U.Beck bunu “do it yourself biography” (özün etdiyin tərcümeyi-hal) adlandırır: fərd həyatını necə quracağını özü seçməlidir. Amma məsələ yalnız istiqamət və identiklik seçib, onu qurmaqla bitmir. Müasir dünyada tələblər hər an, birdən-birə dəyişdiyi üçün hansısa sabit bir identiklik deyil, seçim azadlığı və identikliyi dəyişdirmək bacarığı daha vacibdir. Bu vəziyyətdə identifikasiya müvəqqəti, həmişə yeniliklərə açıq olan bir layihədir.

İkinci fəsil **“XX əsrin sonu - XXI əsrin əvvəllərində azərbaycanlı insanların identifikasiya istiqamətləri”** adlanır. **“Keçid dövrü problemlərinin şərtləndirdiyi identifikasiya modelləri”** adlanan birinci yarımfəsildə 90-cı illərdə müşahidə

olunan dəyişikliklərin, sosial problemlərin insanların davranışına, mədəni dəyərlərinə, fəaliyyətinə təsiri araşdırılır. İnsanlar üçün vərdiş etdikləri əvvəlki norma və dəyərlərdən ayrılmaq, açıq cəmiyyətin normalarını müəyyənləşdirmək, onlara uyğunlaşmaq çətin idi. M.Rzayev keçid dövründə formalaşan yeni tarixi tipi – keçid dövrü şəxsiyyət tipini fərqləndirir. Bu tipin dünyagörüşündə, şüurunda avtoritar rejimlə yeni, açıq cəmiyyətin xüsusiyyətlərinin qarşılıqlı əlaqəsi nəticəsində ziddiyyətli əlamətlər meydana gəlir. O həmçinin, özündə əks məzmunlu cəhətləri birləşdirir: əməksevərliklə tənbəlliyi, qanuna hörmətlə intizamsızlığı, kollektivçilik ilə fərdiyyətçiliyi və s. [9]

Postsovet məkanında keçid prosesi əvvəlki keçid təcrübələrindən bir çox xüsusiyyətlərinə görə fərqlənirdi. Digər keçid proseslərində dövlətlərin ərazi bütövlüyü və quruluşu qorunub saxlanılmışdısa, burada keçid prosesi ərazi mübahisələri, köçlər, etnik azlıq və milli münaqişələr ilə müşayiət olunurdu. Ermənistan Azərbaycana ərazi iddiaları irəli sürərək, ən qəddar üsullardan istifadə etmiş, həmvətənlərimiz soyqırıma məruz qalmış, yüzlərlə azərbaycanlı öldürülmüş, digərləri isə yurdlarını, evini tərk etmək məcburiyyətində qalmışdılar. Bizim ayırdığımız ilk identifikasiya modeli də qaçqınlar və məcburi köçkünlərdir. Qaçqınlar və məcburi köçkünlər psixoloji reabilitasiyaya, sosial adaptasiyaya və inteqrasiyaya ehtiyac duyan ən həssas qruplardan biridir. Onlar uzun müddət vərdiş etdikləri mühiti, evlərini tərk etmək məcburiyyətində qalmış, qətllərin, ölümün şahidi olmuş, qohumlarını, dostlarını faciəli şəkildə itirmişlər. Araşdırmalar göstərir ki, onların bir çoxunda yaşadıqları travmadan qaynaqlanmış psixoloji problemlər, depressiya, gecə kabusları müşahidə olunur.[10] Qaçqınlara və məcburi köçkünlərə münasibət yerli əhali arasında ilk zamanlarda mülayim olsa da tədricən bu dəyişdi. Bunun əsas səbəbləri onların yerli əhaliyə məxsus boş evləri zəbt etmələri, onlara verilən imtiyazlardan bir-çox hallarda sui-istifadə edilməsidir. Azərbaycanda

---

[9]Rzayev, M.H. Keçid dövrü şəxsiyyətinin sosial-fəlsəfi təhlili: / fəlsəfə üzrə elmlər doktoru dis. / – Bakı, 2005. – s. 78

[10]Ismayilov N., Ismayilov F. Mental health of refugees: the case of Azerbaijan. // World Psychiatry, Mental health policy paper, – 2002, June, – p.121-122.

son çadır şəhərciyi 2007-ci ildə ləğv edildi. Buna baxmayaraq hələ də evsizlikdən əziyyət çəkən, şəraitsiz və ağır şərtlərdə yaşayan qaçqınlar qalmaqdadır. 2020-ci ilə İkinci Qarabağ müharibəsində torpaqlarımız işğaldan azad olunaraq, həmin ərazilərdə genişmiqyaslı işlərə başlanılmışdır. Qaçqın identikliyinin tezliklə silinərək tarixə qovuşmasına inanırıq.

İkinci identifikasiya modeli sovet təcrübəsinin insanların dünyagörüşünə təsiri ilə, ikinci və ya qeyri-rəsmi iqtisadiyyat ilə birbaşa əlaqəlidir. Sovet zamanı iqtisadi idarəçiliyin səmərəsizliyinə görə insanlar öz iqtisadi şəbəkələrini quraraq, qeyri-qanuni və ya iş yerindən oğurluq kimi dürüst olmayan fəaliyyətlə məşğul olmağı haqlı hesab edirdilər. Sosial şərtlərin çətinliyi şəraitində, sağ qalmaq uğrunda mübarizədə həmin qeyri-qanuni əməllər bəzi insanlar üçün həyatda qalmağın yeganə vasitəsi oldu. İkinci iqtisadiyyat və qeyri-qanuni gəlir artıq öz yerini möhkəmləndirərək adi hal almağa başladı. Buna görə Azərbaycanda növbəti identifikasiya modeli kimi heç bir mənəvi kodeksi hesaba almadan gəlir əldə etməyi hədəfləyən insan tipini göstərə bilərik. Onlar yaşayış səviyyəsini əsas həyat meyarı hesab edərək, özlərini və digərlərini qazancı və gəlir məbləği ilə müəyyənləşdirirlər.

Əvvəl nisbətən sabit, təbəqələr arasında fərqin az olduğu məkanda özəl təsərrüfat münasibətləri, şəxsi mülkiyyət, sahibkarlıq məhz kapitalizm qaydaları ilə bərqərar olmadı. Çünki, insanların özlərinə, başqalarına və ətraf dünyaya aid vərdişlərini, fikirlərini qısa müddətdə dəyişdirmək çətindir. İqtisadi fəaliyyətdəki köklü dəyişiklik yalnız düşüncə dəyişikliyini deyil, onların sosial, mədəni, mənəvi dünyalarının da yenidən qurulmasını tələb edir. Uzun müddət mülkiyyətsizlik hissinə alışdırılmış insanlar birdən-birə dəyişikliklərə və gərginliyə tab gətirə bilmir, “bizim” olandan “mənim” olana keçid doğru-düzgün anlaşılmır. V.Cəfərovanın yazdığı kimi bu gün cəmiyyətimizdə az zəhmət sərf edib, daha çox qazanc əldə edən, yalnız özünü düşünən, mənəvi sərvətlərə qarşı laqeyd olub maddi sərvət toplamaq arzusu ilə yaşayan, həyatın mənasını maddi rifahda

görən, xudpəsəndliyi özü üçün həyat fəlsəfəsinə çevirən meşşan əhval-ruhiyyəli adamların sayı artır.[11]

Keçid dövrünün çətinlikləri digər bir xüsusiyyəti – ailə, nəsil bağlarının möhkəmlənməsini şərtləndirdi. Ailə insanların əsas identifikasiya mənbəyinə çevrildi və özünü ailəsi ilə identifikasiya edən model formalaşdı. Postsosialist dönəmdə strukturların iflası və çətinliklər nəticəsində insanlar şəxsiləşmiş bir şəbəkənin hissəsi olmağı dövlətə güvənməkdən daha etibarlı hesab etməyə başladılar. Bu məqamda "sosial kapital" anlayışı gündəmə gəlir. "Sosial kapital"ı ən sadə şəkildə insanın uğuru üçün əhəmiyyətli olan sosial əlaqələrin dəyəri kimi izah etmək olar. A.Vəliyev müasir Azərbaycanda "bonding social capital"ın - üzvlüyün yalnız anadangəlmə təmin edildiyi, eyni ailənin, klanın nümayəndələri arasındakı əlaqə və ya şəbəkənin geniş yayıldığını qeyd edir.[12] İnsanlar adətən ailə şəbəkələri vasitəsilə iş tapır, vəzifələrə yüksəlir və mənbələrə giriş əldə edirlər. Bu halın güclənməsi, öz yaxın ətrafından kənar məsələlərə görə məsuliyyət hissinin azalması kimi bir çox mənfi nəticələrə səbəb olur. İnsanlar üçün sadəcə ailəsinin, övladlarının rifahı maraqlı olur və bütün fəaliyyətində prioritet olaraq onları qoyur. Ailə və qohum əlaqələrinin üstün tutulması ayrılıqda mənfi bir hal deyil, bu o zaman mənfi hal alır ki, digər mənəvi kodekslərlə ziddiyyət təşkil edir. Bu mənada deyə bilərik ki, sovet dövründə formalaşmış "amoral familism", yəni qeyri-əxlaqi ailəvilik hələ də özünü saxlayıb. Bu anlayış ailə və dostlar arasında qeyri-rəsmi əlaqələrin ümumi və ictimai xeyirdən üstün olduğunu vurğulayır. Cəmiyyət üçün nəticələrin nə olacağından asılı olmayaraq insanın özü və qohumları üçün xeyirli olan hər şey müsbət qiymətləndirilir. Qeyd olunur ki, istər identifikasiya böhranından çıxmaq üçün, istərsə də mənəvi keyfiyyətləri dirçəltmək üçün insanlara ümumi məqsəd və istiqamət vermək lazımdır. Ortaq

---

[11]Cəfərova, V. Bazar iqtisadiyyatına keçid: ziddiyyətlər və onun həlli yolları/ V.Cəfərova. – Bakı: Azərbaycan nəşriyyatı, – 1996. – s.64

[12]Valiyev, A. Do citizens of the former Soviet Union trust state institutions and why: The case of Azerbaijan/ A.Valiyev, A.Babayev, H. Huseynova [et al.] // Communist and Post-Communist Studies, – 2017. 50 (3) , – pp. 221-231.

identiklik və biri-birinə inama əsaslanan qrup həmrəyliyi olmadan sosial səfərbərlik yaratmaq mümkün deyil.

İkinci yarımfəsil **"XX əsrin sonu-XXI əsrin əvvəllərində tarixi identifikasiya modelləri"** adlanır. Tarixi inkişaf və ictimai şüur varislik prinsipinə əsaslanır. XX əsrin sonu bərpa edilən müstəqillik həm də XX əsrin əvvəllərində formalaşmış identikliyimizin yenidən dəyərləndirilərək bərpası idi. Azərbaycanlı kimliyinin formalaşması prosesindən, hansı təsirlərə məruz qalmasından bəhs olunur. XX əsrin əvvəllərində artıq azərbaycanlı identikliyinin formalaşması başa çatmış hesab olunsa da, XX əsrin sonlarında müstəqillik bərpa olunduqdan sonra identikliyimizi təşkil edən elementlər arasında yenidən müəyyən təlatümlər müşahidə olunurdu. Daha çox gizlədilən özəlliklərimiz ayrı-ayrılıqda daha çox təzyiqlə üzə çıxmağa başlamışdı. Amma ötən 70 ilin təsiri izsiz qala bilməzdi. N.Əfəndiyeva bunu belə ifadə edir. "*Azərbaycan özünüidentifikasiyasının əsasında duran hansı simvollar vardısa, hamısı Sovet rejimində və ideologiyasında bu və ya başqa dərəcədə zərbələr almışdı. İslam ateistik inkara məruz qalırdı və nəticədə, olsa-olsa yas dininə çevrilmişdi. Türkçülük "Azərbaycan" ideyası altında kəskinliyini itirmiş, amorf simvola çevrilmişdi. Müasirlik və Avropaçılıq bolşevik Rusiyası ilə əvəz edilmişdi*".[13] Bu səbəbdən həmin elementləri olduğu kimi bərpa etmək mümkün olmadı.

Müasir Azərbaycanda tarixi identifikasiya modelinin ilk nümunəsi kimi insanların özlərini dini kimliyi, aid olduğu dini qrupları ilə eyniləşdirməsini göstərə bilərik. Azərbaycanda milli-dini dəyərlərə qayıdışda yeni mərhələ başlanmışdı. 1976-cı ildə qeydiyyata alınmış 16 məscid və 1 mədrəsə olduğu halda, Sovet dövrünün sonlarına yaxın bu say 200-ə çatmışdı, 2001-ci ildə isə 1300-dən çox məscid və saysız islam məktəbləri var idi.[14] 1980-ci illərdə soruşulanların 50 %-i özünü inanclı hesab edirdisə, 2006-cı ildə Elmlər Akademiyasının Arxeologiya və Etnoqrafiya İnstitunun

---

[13]Əfəndiyeva N. Azərbaycanlı özünüdərki və milli özünüdentifikasiyasının kulturoloji-fəlsəfi problemləri qloballaşma kontekstində: / kulturologiya üzrə fəlsəfə doktoru dis. / – Bakı, – 2007. –s 195.

[14]Motika, R. Islam in Post-Soviet Azerbaijan // Archives de sciences sociales des religions, – 2001, № 115, – pp.111-124.

apardığı sorğunun nəticələri bunun 72% olduğunu göstərir.[15] Dini dəyərlərin oyanışı görünsə də, ateizmin uzun müddətli təbliği dini təsəvvürdə öz izini qoyaraq ziddiyyətli məqamlara səbəb olmuşdu. Sovet hakimiyyəti dövründə İslam dininə qarşı aparılan təbliğatın, tətbiq edilən qadağaların nəticəsi olaraq əhalinin dini təsəvvür və bilikləri zəifləmişdi. Dini biliklərin olmaması öz növbəsində missioner təşkilatların, xaricdən maliyyələşən dini qurumların fikirlərini yaymaları və sərbəst fəaliyyət göstərmələri üçün zəmin yaradırdı. Dini biliklərin az olması nəticəsində qəribə bir vəziyyət yaranmışdı. Adamlar özlərini müsəlman və müsəlman millətinin nümayəndəsi hesab edir, lakin bu zaman materializmi müdafiə edir və bildirirdilər ki, Allah yoxdur.[16] Gündəlik həyatda demək olar ki, dinə yer yox idi, ona ancaq həyat çətinlikləri zamanı müraciət olunurdu. Bugün azərbaycanlıların özlərini "müsəlman" kimi identifikasiya etməsi dindarlıqdan daha çox mədəni göstəricidir, ona məhz milli ənənə kimi baxılır. Sorğuya əsasən 87-92 % arası insan özünü müsəlman hesab etsə də, islam qaydalarının çox az bir hissəsinə əməl edir, yalnız 4-6% insan əksər İslam qaydalarına əməl edən fəal dindar adlandırıla bilər.[17]

Digər identifikasiya modeli kimi dil ilə identifikasiyanı göstərmək olar. Bu zaman mədəni qrup kimi rusdilli əhalini ayırmaq mümkündür. Rusdilli əhali dedikdə əsasən təhsilini rus dilində almış, ətrafı, yaxın çevrəsi ilə rus dilində ünsiyyət quran insanlar nəzərdə tutulur. Hesab edirik ki, rusdilli əhali Azərbaycanda ayrı bir identifikasiya modeli təşkil edərək öz dünyagörüşü, düşüncə tərzi və mədəniyyəti ilə fərqlənir. S.Akyıldızın yazdığı kimi Azərbaycanda sanki iki müxtəlif dünya var, biri rusdilli dünya və digəri

---

[15]Mammadli, A. Peculiarities of the formation of azerbaıjanis' ethnic identity in the soviet era. In "Azerbaijani" and Beyond: Perspectives on the Construction of National Identity. Edited by A. Mammadli, A. Braux, C. Mahmudlu . – Berlin: Verlag Koester, – 2016. – pp. 61-86.

[16]Свентоховский, Т. Русское правление, модернизаторские элиты и становление национальной идентичности в Азербайджане / Азербайджан и Россия. Общества и государства. Под ред. Д.Е.Фурман. – Москва: Летний сад, – 2001. с. 12-13.

[17]The World's Muslims: Religion, Politics and Society /– April 30, 2013. URL: http://www.pewforum.org/2013/04/30/the-worlds-muslims-2013-2

azərbaycanca danışan dünya. Bu iki dünya özünəməxsusdur və biri-birinə tənqidi yanaşır.[18]

Rusdilli əhalinin formalaşma tarixinə nəzər yetirilərək Çar Rusiyası və Sovet dövründə rusdilli təhsilin təsiri vurğulanır. Azərbaycanda müstəqilliyin verdiyi emosiyalar ilə rus dilindən imtina siyasəti tətbiq olunurdu, rus dili və mədəniyyəti ilə mübarizə özünü adi məişət səviyyəsində də göstərirdi. Amma zaman keçdikcə bu proses iflasa uğradı və yarımçıq qaldı. Günümüzdə rus təmayüllü siniflərin fəaliyyəti artmaqdadır və işə qəbul prosesində rus dili əsas tələblərdən biridir. Rusdilli orta məktəblərə tələbin artmasının əsas səbəbi təhsilin keyfiyyəti ilə əlaqələndirilir. Valideynlər inanırlar ki, rusdilli orta məktəblər azərbaycandillilərlə müqayisədə daha keyfiyyətli təhsillə təmin edir və onlar dövlət tərəfindən maaliyyələşir. Azərbaycanda bu gün də rusdillilərlə ünsiyyət zamanı rusca danışmağa, suallarını rus dilində cavablandırmağa çalışılır. Əgər azərbaycandillilərdən rusdillilərin xüsusiyyətləri haqda soruşsaq onları yekəxana, özündənrazı və eyni zamanda geniş dünyagörüşlü, mədəni kimi qiymətləndirəcəklər. Məhz bu səbəbdən özünü mədəni göstərmək istəyənlər danışığı əsnasında rus sözlərindən istifadə etməyə meyillidirlər.

Azərbaycanda növbəti tarixi identifikasiya modeli kimi özünü etnik kimliklə eyniləşdirmə, xüsusilə titul etnik qrup olan türkçülüyü göstərmək olar. Tarixən türkülük farslaşmaya və ruslaşmaya qarşı müdafiə xarakteri daşıyıb və identiklik mənbəyi kimi böyük rola malik olub. M.Ə.Rəsulzadə yazırdı ki, ayrıca götürüldükdə onlar azadlığa və müstəqilliyə bir işarə belə vura bilməzdilər, çünki istismarçı çox güclü idi. "*Amma, kiçik bir tayfa deyil, möhtəşəm tarixə malik böyük bir millətin üzvləri olduqlarını anlamaq onların ümidlərini gücləndirdi və bir neçə əsrlik düşmənləri ilə aktiv mübarizəyə ruhlandırdı.*"[19] Azərbaycanın yenidən müstəqillik qazanması ilə milləti başqa bir ad altında yenidən birləşdirən ideoloji

---

[18]Akyıldız, S. Inreflections of nationalism and the role of language policies in national identity formation in post-soviet Azerbaijan: / A thesis for the degree of master of science. / – Ankara, – 2019. – p. 89

[19]Расулзаде М.Э. О пантуранизме. В связи с кавказской проблемой. – Оксфорд: РИ- "ОИСА", – 1985, – с.68

zəminə ehtiyac yarandı. İki rəqib ideologiya – türkçülük və azərbaycançılıq ortaya çıxdı. Türkçülüyün təsirinin zəifləməsinin səbəblərindən biri millətçiliyin şovinizmlə, faşizmlə eyni mənada anlaşılması, öz milliyətinin daha üstün hesab edilməsi, digərlərinə hörmət edilməməsi kimi qarşılanması idi.

**"Qloballaşma və milli mədəniyyət: özünüidentifikasiya çətinliyi"** adlanan üçüncü yarımfəsildə qloballaşma və milli mədəniyyət nəsillərarası münasibətlər baxımından araşdırılıb. Milli mədəniyyət müəyyən cəmiyyətin mənəvi və sosial həyat təcrübəsini, kollektiv yaddaşını, əxlaqi dəyərlərini özündə saxlayır. Geniş anlamda qloballaşma xalqlar, millətlər, mədəniyyətlər arasında münasibətlərin genişlənməsi və inteqrasiyası nəticəsində dəyərlərin eyniləşməsi, həyat tərzinin standartlaşması deməkdir. Bu mənada qloballaşma mədəni müxtəlifliyə təhlükə yaradır və illərdir formalaşan, millətin mərkəzi özəyini təşkil edən milli identiklik ilə toqquşur.

Qloballaşmanın xüsusiyyətləri ilə milli mədəniyyət arasında çəkişmə prosesi nəsillərarası münasibətlərə də təsirsiz ötüşmür. Belə ki, yaşlı nəsil daha çox milli mədəniyyəti təmsil etdikləri halda, cavan nəsil qlobal mədəniyyətə meyillidir. Keçid dövrünün böhranlı illərində yaşlı nəsil artıq inandıqları ideallarin süquta uğradığının şahidi oldular, gənc nəsil üçün isə istinad edə biləcək bir dayaq yox idi. Zaman irəlidikcə vəziyyət dəyişilməyə doğru yönəldi. Dünyaya inteqrasiya prosesləri sürətləndikcə daha rahat adaptasiya edə bilən gənc nəsil qlobal mədəniyyəti mənimsəməyə başladı. Gənc nəsil etnomədəni özünüidentifikasiyadan, xalq mədəniyyətindən (adət-ənənələr, folklor və s.) imtina edərək kütləvi mədəniyyətin stereotiplərini qəbul edirlər. Bu prosesləri sosial şəbəkələr, miqrasiya proseslərindəki göstəricilərlə də müşahidə etmək mümkündür. Bununla belə, özündə həm milli, həm də qlobal mədəniyyətin dəyərlərini birləşdirən bikültürəl identikliyə sahib gənclər də geniş yayılıb. Yaşlı nəsil isə daha çox milli mədəniyyətə meyillidir və gəncləri eqoizmdə, fərdiyyətçilikdə günahlandırırlar. Zaman keçdikcə yaşlı nəslin bir hissəsində sovet nostalgiyası özünü göstərməyə başladı. Sorğuların nəticələri göstərir ki, postsovet məkanının əhalisinin 54%-i sovet birliyinin dağılmasına peşmandır

və Azərbaycanda 31% əhali bunun ölkəmizə ziyan vurduğunu düşünür.[20] Düşünürük ki, bu yaşlı nəslin sovet dövrünün sabitliyindən, rahatlığından ötəri darıxmaqlarından və müasir proseslərə uyğunlaşa bilmə çətinliyindən irəli gəlir.

Tədqiqat aşağıdakı **nəticələrə** gəlməyə əsas vermişdir:

1.İnsanın identifikasiyasının həm müsbət, həm də mənfi cəhətləri vardır. İdentiklik yaradıcı xüsusiyyətlərə sahib olduğu kimi, dağıdıcı meyillərə də xidmət edə bilər.

2. İnsanın hər hansı kollektivə aid olması onun özünü təhlükəsizlikdə hiss etməsinə səbəb olur. Amma eyni zamanda bəzi individual özəlliklərin əzilməsinə, məhv edilməsinə səbəb ola bilər.

3. Müasir dövrün xüsusiyyətləri, texnoloji inkişaf, miqrasiya proseslərinin insanlara verdiyi azadlıq identifikasiya böhranına səbəb olmuşdur.

4. İdentifikasiya böhranı nəticəsində insanların daha çox maddi nemətlərə meyillənməsi müəyyənləşdirilmişdir.

5. XX əsrin sonu-XXI əsrin əvvəllərində Azərbaycanda iqtisadi, siyasi sahədə yenilənmələr mədəni, əxlaq və mənəviyyat sahələrində də yenilənmələrə yol açdı. Dəyər transformasiyası özünütanıma böhranına səbəb oldu. İnteqrasiya etdiyimiz dünyada artıq identifikasiya böhranı yaşanırdı, buna görə də hər hansı bir identiklik modelinə nümunə kimi müraciət etmək çətin idi.

6. Azərbaycanda həm sovet rejiminin, həm də açıq cəmiyyətin xüsusiyyətləri, köhnə və yeni dəyərlər, sosial problemlərin bir araya gəlməsi ziddiyyətli məqamları ortaya çıxardı. İnsanlar arasında güclü - necə əldə edilməsindən asılı olmayaraq maddi uğur əldə edənlər sayılır. Həmçinin, ailə ilə identifikasiya güclənir, məsuliyyət hissi ictimai xeyirə yox, yalnız ailə üzvlərinə aid edilir.

7. Müstəqilliyin bərpa olunması ilə vahid "sovet insanı" modelindən azad olan Azərbaycan insanında əzilən ideoloji istiqamətlərə - dini və etnik identifikasiyaya meyil gücləndi. Azərbaycanda rus dili öz simpatiyasını itirdi. Amma tədricən rusdilli

---

[20]Former Soviet Countries See More Harm From Breakup https://news.gallup.com/poll/166538/former-soviet-countries-harm-breakup.aspx

siniflərin sayı artmağa və işə qəbul prosesində rus dili əsas prioritetlərdən biri kimi irəli sürülməyə başladı.

8. 70 il ərzində Sovet ideoloji rəhbərliyi təbliğatının təsiri nəticəsində Azərbaycanın Sovetdən əvvəlki kimliyinin birbaşa mənimsənilməsi mümkün olmadı.

9. Azərbaycanda sadaladığımız müxtəlif identifikasiya qrupları arasında konflikt məsələsinə gəlincə deməliyik ki, bu, qruplar arasında radikallıq dərəcəsinə çatmır. Müxtəlif identifikasiya modelləri arasında münaqişə müşahidə olunmur.

**Mövzu ilə əlaqədar dərc edilmiş məqalələrin siyahısı:**


1. Mədəniyyətdə müharibənin rolu // "Ulu öndər Heydər Əliyev irsində multikultural və tolerant dəyərlər" beynəlxalq elmi konfransının materialları, – Bakı: – 3-5 may,– 2016, – s. 394-395.

2. Mədəniyyətdə identifikasiya problemi // Doktorant və gənc tədqiqatçıların XX Respublika elmi konfransının materialları, – Bakı: – 24-25 may, – 2016, – s. 587-589.

3. Qloballaşma və milli mədəniyyət: identifikasiya çətinliyi // Mədəniyyət dünyası, elmi-nəzəri məcmuə, – 2016, № 32, – s. 23-27.

4. XX əsrin sonu – XXI əsrin əvvəllərində Azərbaycanda identifikasiya böhranı // Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin Elmi Əsərləri, – 2017, № 23, – s. 26-30.

5. İnsanın identifikasiya tələbatı və mədəni dəyərlər // "Azərbaycanşünaslığın aktual problemləri" VIII beynəlxalq elmi konfransının materialları, – Bakı: 4-5 may , – 2017, – s. 618-620.

6. Müasir dövrdə dəyər transformasiyası // Mədəniyyət: problemlər və perspektivlər. Doktorant və gənc tədqiqatçıların XI beynəlxalq elmi konfransının materialları, – Bakı: may,– 2017, – s. 38-39.

7. XX əsrin sonu – XXI əsrin əvvəllərində Azərbaycanda insanın identifikasiya modelləri // Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin Elmi Əsərləri, –2017, № 24, – s. 34-40.

8. Müasir insanın dəyər istiqamətləri // Sivilizasiya jurnalı, – 2017, Cild 6 №2, (34), – s. 59-62.

9. Tarixi inkişaf ərzində insan obrazının dəyişilməsi // Mədəniyyət.Az jurnalı, – 2017, № 315, – s. 84-87.

10. Потребность человека в идентификации // Наука и образование сегодня, – 2017, № 2 (13), – с. 95-98.

11. Идентичность или разрозненность? // Интернаука, – 2017, № 18 (40), – с. 25-27.

12. Keçid dövründə identifikasiya problemi // Doktorant və gənc tədqiqatçıların XXI respublika elmi konfransının materialları, – Bakı: – 24-25 oktyabr, – 2017, – s. 277-278.

13. İnsanın özünümüəyyənləşdirməsində milli-mənəvi dəyərlərin rolu və müasir dövrün xüsusiyyətləri // "Milli-mənəvi dəyərlər: ənənə və müasirlik" mövzusunda beynəlxalq elmi konfrans, – Bakı: – 2 may,– 2018, – s. 402-405.

14. Geçiş döneminde kimlik krizi: Azerbaycan örneği // Türkküm 2018. Uluslararası Türk kültürü ve medeniyyeti kongresi, – Balıkesir, Türkiyə: – 5-8 sentyabr, – 2018, – s. 829-833.

15. Keçid dövrünün insanları seçim qarşısında: mənəvi dəyərlər yoxsa maddi rifah // Doktorant və gənc tədqiqatçıların XXII respublika elmi konfransının materialları, – Bakı: – 22-23 noyabr, – 2018, – s. 536-537.

16. Кризис идентификации в переходный период развития общества: опыт Азербайджана // Журнал «Идеи и Идеалы», – 2019, №4 часть 2, – с. 443-453.

17. Yardımlaşmadan yadlaşmaya // "Cəmiyyətə inteqrasiya və sosial adaptasiya: nəzəri və praktik aspektlər" Respublika elmi konfransının materialları, – Sumqayıt: – 26-27 noyabr, – 2020, – s. 294-298.

18. Is there a soviet nostalgia in Azerbaijan // İncəsənət və mədəniyyət problemləri, – 2022, №2 (80), – s.73-79.

Dissertasiyanın müdafiəsi 31 oktyabr 2022-ci il tarixində saat 12:00-da AMEA Memarlıq və İncəsənət İnstitunun nəzdində fəaliyyət göstərən FD 1.34 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ 1143, Bakı şəhəri, Hüseyn Cavid prospekti 115, 4-cü mərtəbə.

Dissertasiya ilə AMEA-nın Mərkəzi Elmi Kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları AMEA Memarlıq və İncəsənət İnstitutunun rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 28 sentyabr 2022-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 19.09.2022

Kağızın formatı: A5

Həcm: 41129

Tiraj: 100